**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

---

*Əlyazması hüququnda*

**BALOĞLU MUTLU HÜSEYİN OĞLU**

# BAKI-TBİLİSİ-CEYHAN NEFT BORU-KƏMƏRİNİN TÜRKİYƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA TƏSİRİ

**İxtisas**: **5310. 01 - “Dünya iqtisadiyyatı”**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiya işinin

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya işi Azərbaycan Respublikası Təhsil Nazirliyi Qafqaz Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Sabir Qənbər oğlu Cümşüdov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru
**Dünyamalı Əmir oğlu Vəliyev**

iqtisad üzrə fəlsəfə doktoru
**Aqil Aftandil oğlu Eyvazov**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət İqtisad Universiteti

Dissertasiya işinin müdafiəsi 17 may 2016-cı ildə saat $14^{00}$ - da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ. 1143, Bakı şəhəri, H.Cavid prospekti 31, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 14 aprel 2016-cı ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının elmi katibi,
iqtisad üzrə fəlsəfə doktoru, dosent F.Q.Musayeva

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə hər bir ölkə üçün enerji sektorunun idarə olunması, enerji təhlükəsizliyinin təmin olunması, cəmiyyətin və iqtisadiyyatın ehtiyac duyduğu həcmdə enerjinin fasiləsiz, etibarlı, vaxtında və minimum qiymətlərlə təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Neft və qaz istehlakının bütün dünyada kəskin artması bu məhsulların istehsalçıdan istehlakçıya tez və təhlükəsiz nəqlində yeni nəqliyyat vasitələrindən və texnologiyalardan istifadə etmək zərurəti yaradıb.

Son onilliklərdə xam neftin və qazın uzaq məsafələrə daha təhlükəsiz və ətraf mühitə daha az zərərlə nəqlini reallaşdıran əsas nəqliyyat vasitəsi kimi neft və qaz boru kəmərləri sistemlərindən istifadə edilir. Xəzər hövzəsində geniş həcmli neft və qaz yataqlarının kəşf edilməsi və 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsinin" imzalanması dünyanın aparıcı neft və qaz şirkətlərinin diqqətini Bakıya yönəltdi.

Lakin "Əsrin müqaviləsinin" imzalanması və geniş həcmli xam neftin hasil olunması onun təhlükəsiz nəqlinin reallaşması olmadan əhəmiyyət daşıya bilməzdi. Elə buna görə də "Əsrin müqaviləsinin" növbəti addımı kimi neft boru kəmərinin tikintisi gündəmə gəldi. Çünki Bakı-Subsa və Bakı–Novorossiysk kəmərlərinin nəql gücü "Əsrin müqaviləsində" nəzərdə tutulan ixrac həcminə kifayət etmirdi. Elə bir neft boru kəmərinə ehtiyac var idi ki, gündə 1 milyon barel xam neftin nəqlinə imkan yaratsın. Bu, həm də gələcəkdə Orta Asiyadan ixrac edilən xam neft üçün də mühüm əhəmiyyət daşımalı idi. Beləliklə, 1998-ci ilin oktyabrından Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisi gündəmə gəldi.

Qeyd edək ki, Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinin tikintisi üçün ilkin razılaşma, onun maliyyələşdirilməsi prosesi, tikinti üçün ərazinin alınması, kompensasiyaların verilməsi və sair məsələlər müxtəlif siyasi qüvvələrin, bəzi ərazilərdə yerli icmaların və qeyri-hökumət təşkilatlarının müqaviməti ilə rastlaşdı. Belə ki, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisində və istismarında mübahisə doğuran əsas məsələlərdən biri də onun keçdiyi ərazilərdə ekoloji təsirlərinin yumşaldılması və sosial-iqtisadi inkişafın təmin edilməsi ilə bağlı idi. Çünki BTC-nin təhlükəsiz istismarı bu faktorlardan çox asılıdır.

Digər tərəfdən, BTC boru kəməri keçdiyi ölkələr üçün daha ciddi əhəmiyyət kəsb edir. Xüsusilə, Türkiyə və Gürcüstan üçün kəmərin əhəmiyyəti, yalnız enerji təhlükəsizliyi ilə məhdudlaşmır, eyni zamanda, bu

ölkələrin sosial-iqtisadi inkişafını vəd edir. Təbii ki, kəmərin vəd etdiyi üstünlüklərdən necə yararlanmaq məsələsi, onun əhəmiyyətliliyinə təsir edən başlıca amildir.

Məhz buna görə də BTC-nin keçdiyi ərazilərdə ekoloji və mənfi sosial-iqtisadi təsirlərin azaldılması məsələsinin müxtəlif səviyyələrdə, o cümlədən elmi səviyyədə tədqiq edilməsi mühüm aktuallıq kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** Boru-kəməri nəqliyyatından səmərəli istifadə olunması, boru kəmərinin ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişafına təsirinin aydınlaşdırılması və s. ilə əlaqədar elmi-tədqiqat işlərinə istər Türkiyə, istərsə də Azərbaycan Respublikasıda ayrıca yer verilməmişdir. Xüsusilə, konkret olaraq, BTC boru kəmərinin iqtisadi və sosial-iqtisadi təsirləri ilə bağlı Azərbaycanda və Türkiyədə geniş elmi araşdırmalar aparılmayıb. Lakin, neft hasilatına və ixracına aidiyyəti olan məsələlərin tədqiqinə dünyada, o cümlədən Türkiyədə və Azərbaycanda bir çox alimlərin əsərlərində rast gəlmək mümkündür. Azərbaycanlı alimlərdən A.A.Nadirov, Ə.X.Nuriyev, A.K.Ələsgərov, T.N.Əliyev, S.Q.Cümşüdov Z.S.Məmmədov, T.Ə.Xəlilov, F.M.Hacıyev, A.M.Əsədov, E.Hacızadə və başqaları öz əsərlərində problemlə bağlı ayrı-ayrı nəzəri-metodoloji və praktiki məsələlərin tədqiqinə geniş yer vermişlər. Türkiyədə Cenk Pala, Necdet Pamir, Osman Nuri Aras, Sinan Oğan və s. alimlərin əsərlərində də əlaqədar məsələlərin tədqiqinə rast gəlinir.

BTC-nin Türkiyə iqtisadiyyatına vəd etdiyi üstünlüklərdən maksimum şəkildə yararlanmaq, kəmərin ölkə iqtisadiyyatına müsbət təsirlərini daha da artırmaq, BTC-dən bəhrənərək regionun enerji təhlükəsizliyində Türkiyə Respublikasının mövqeyini daha möhkəmləndirmək, eləcə də bu istiqamətdə Türkiyə-Azərbaycan münasibətlərini daha da inkişaf etdirmək məqsədilə müvafiq araşdırmaların aparılması, elmi əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması zəruriliyi tədqiqat mövzusunun seçilməsinə, eləcə də məqsəd və vəzifələrinin müəyyən edilməsinə tam əsas verir.

**Tədqiqat işinin məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Türkiyə Respublikasının ayrı-ayrı sənaye sahələrinə, həmçinin keçdiyi ərazilərin sosial-iqtisadi inkişafına təsirlərinin artırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat zamanı aşağıdakı vəzifələr qarşıya qoyulmuş və ardıcıl olaraq yerinə yetirilmişdir:

- Xəzər hövzəsində, eləcə də dünyada neft ehtiyatlarının müqayisəli təhlili və qiymətləndirilməsi;
- Dünyanın enerji təhlükəsizliyində BTC-nin əhəmiyyətinin müəyyən edilməsi ;
- Neft boru kəmərlərinin iştirakçı ölkələrin, xüsusilə Türkiyənin iqtisadi tərəqqisində rolunun müəyyən edilməsi;
- BTC-nin Türkiyədə birbaşa və dolayı sosial-iqtisadi təsirlərinin təhlili və qiymətləndirilməsi;
- Türkiyə Respublikasının sosial-iqtisadi tərəqqisinə neft-boru kəmərlərinin təsirinin qiymətləndirilməsi;
- Türkiyənin sosial-iqtisadi tərəqqisinə BTC-nin təsirlərinin artırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənib hazırlanması.

**Tədqiqatın obyekti.** Tədqiqat obyekti olaraq Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin fəaliyyəti və Türkiyədə keçdiyi ərazilər seçilmişdir.

**Tədqiqatın predmetini** BTC-nin Türkiyə iqtisadiyyatına və kəmərin keçdiyi ərazilərdə tikintiyə qədər, tikinti zamanı və tikintidən sonra (istismar dövrü) sosial-iqtisadi vəziyyətə təsirlərinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları:** Tədqiqatın nəzəri-metodoloji əsasını Azərbaycan hökuməti ilə ABƏŞ arasında imzalanan "Əsrin müqaviləsi", BTC boru kəmərinin tikintisi ilə bağlı rəsmi sənədlər, Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanan "Ölkələrarası Razılaşmalar" və Türkiyə ilə BTC Co arasında imzalanan "Yerli Hökumətlərlə Razılaşmalar", BTC üçün Torpaqların alınması Praqramı, BTC boru kəmərinin Ətraf Mühitə və Sosial Sahəyə Təsirlərinin Qiymətləndirilməsi və sair sənədlər, ayrı-ayrı tədqiqatçıların və ekspertlərin hesabatları, həmçinin fundamental iqtisadi tədqiqatların nəticələri təşkil edir.

**Tədqiqatın informasiya bazasını** BP, BTC Co, BOTAŞ şirkətinin rəsmi internet sayları, Türkiyə Respublikasının müvafiq statistik materialları, BTC boru kəmərinin monitorinqi ilə məşğul olan beynəlxalq təşkilatların rəsmi internet saytları və müəllifin Türkiyə ərazisində şəxsi müşahidələri təşkil edir.

**Tədqiqatın elmi yenilikləri** aşağıdakılardan ibarətdir:

- BTC-nin Türkiyə iqtisadiyyatına birbaşa və dolayısı ilə verdiyi mənfəət hesablanıb;
- Türkiyə ərazisində BTC boru kəmərinin birbaşa və dolayısı ilə sosial-iqtisadi təsirləri qruplaşdırılıb;

- Türkiyə ərazisində BTC boru kəməri ilə bağlı sosial sərmayələrin əhalinin sosial-iqtisadi vəziyyətinə təsirləri müəyyən edilib;

- BTC boru kəmərinin tikintisi üçün ayrılan torpaq sahələrinin özgəninkiləşdirilməsi prosesində əhaliyə verilən kompensasiyaların yerli əhalinin istehlak xərclərinə təsiri müəyyən edilib;

- BTC boru kəmərinin istismarından Türkiyə Respublikasına gələn gəlirlərin ÜMG-ə və əhalinin sosial-iqtisadi vəziyyətinə təsiri qiymətləndirilib.

- BTC-nin Türkiyə Respublikasının sosial-iqtisadi inkişafına təsirinin artırılması istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, əldə edilmiş nəticələrdən, təklif və tövsiyələrdən BTC-nin Türkiyə ərazisində əhalinin sosial-iqtisadi vəziyyətinə mənfi təsirinin azaldılmasında və müsbət təsirlərinin genişləndiriməsində istifadə edilə bilər. Dissertasiya işinin ayrı-ayrı bölmələrinin nəticə və təkliflərindən müvafiq ali məktəblərdə tədris proqramlarının hazırlanmasında, eləcə də müvafiq proqram, təlimat və digər normativ sənədlərin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqat işinin aprobasiyası və nəticələrin tətbiqi.** Dissertasiya işinin əsas müddəalarını əks etdirən 8 məqalə və tezis müxtəlif yerli və xarici elmi jurnallarda və konfrans materiallarında çap edilmişdir. Dissertasiya işi Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda müzakirə edilmiş və tövsiyələr istifadə üçün qəbul olunub (29.12.2015-ci il tarixli, №33/33-7/11 saylı məktubu).

**Tədqiqat işinin quruluşu və həcmi:** Dissertasiya işi giriş, üç fəsil, 9 paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarəttir. Dissertasiya 27 cədvəl və 13 şəkli əks etdirməklə 148 səhifə həcmindədir.

## Dissertasiya işinin mündəricatı

**Giriş**

**I Fəsil. Neft boru kəməri nəqliyyatının inkişafının zəruriliyi, ondan istifadənin xüsusiyyətləri və üstün cəhətləri**

1.1. Dünyanın enerji təhlükəsizliyi məsələləri və onun həllində neft-qaz ehtiyatlarından istifadənin rolu

1.2. Neft-qaz ehtiyatlarının qəyri-bərabər yerləşməsi onun istehlak bölgələrinə daşınması üçün neft boru kəmərlərinin yaranmasının zəruriliyi

1.3. Xəzər hövzəsində neft-qaz ehtiyatlarının müqayisəli təhlili və qiymətləndirilməsi

**II Fəsil. Türkiyənin neft strategiyası və Baki-Tbilisi-Ceyhan neft boru kəmərindən istifadənin müasir vəziyyətinin təhlili**

2.1. Xəzər hövzəsindəki neft boru kəmərlərinin səciyyəvi xüsusiyyətləri və onlardan istifadənin sosial-iqtisadi nəticələri

2.2. Türkiyənin neft strategiyası, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaranma zəruriliyi və inkişaf dinamikasının araşdırılması

2.3. Dünyanın və Türkiyənin enerji təhlükəsizliyində Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin əhəmiyyəti

**III Fəsil. Baki-Tbilisi-Ceyhan neft boru kəmərinin Türkiyənin sosial-iqtisadi inkişafına müsbət təsirlərinin artırılması istiqamətləri**

3.1. Türkiyənin strateji enerji regionuna çevrilməsində Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin əsas prioritetləri

3.2. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Türkiyənin sənayə sahələrinin inkişafına təsir istiqamətləri

3.3. Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Türkiyənin sosial-iqtisadi inkişafına təsirlərinin əsas istiqamətləri

**Nəticə və təkliflər**

**İstifadə edilmiş ədəbiyyatlar**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. BTC boru kəmərinin Türkiyə ərazisində sosial-iqtisadi təsirlərini birbaşa və dolayı təsirlər kimi iki qrupa ayırmaq olar. Birbaşa təsirlər BTC boru kəmərinin yerləşdiyi zonalarda əhalinin əkin sahələrinə və mülkiyyətinə olan təsirlərdir. Bu təsirlər tikintiyə qədər və tikinti zamanı müəyyən çətinliklər yaratsa da, dəymiş zərər ədalətli kompensasiya ilə ödənilib.**

Ümumi uzunluğu 1768 km olan BTC boru kəməri üç ölkə ərazisindən-Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçir. Türkiyə ərazisində boru kəmərinin uzunluğu 1076 km-dir. Boru kəməri Türkiyənin Gürcüstanla sərhədindən Ceyhan portuna qədər məsafədə 10 vilayətdən, 293 yaşayış məskənindən, 12500 torpaq sahəsindən keçərək 27982 torpaq mülkiyyətçisinə təsir göstərib. 3105 hektar torpaq sahəsi boru kəməri üçün layihələşdirilən zonada yerləşdiyindən bu sahələrin mülkiyyətçilərdən tikinti üçün alınması prosesi ciddi idarəetmə və əhali ilə geniş danışıqların nəticəsində reallaşdı.

Lakin, bütün dünyada mədən sənayesi layihələrində olduğu kimi BTC layihəsində də tikinti prosesində ətraf mühitə və sosial sahəyə tamamilə təsirsiz ötüşmək mümkün olmadı. Tikintiyə qədərki dövrdə layihəyə məsul orqanlar yerli əhali ilə apardıqları danışıqlarda və məsləhətləşmələrdə mənfi təsirlərin nə qədər mümkünsə azaldılmasını və əvəzində ədalətli kompensasiyaların verilməsini müzakirə edirdilər. Tikinti üçün eni 8 metr olan zolaq əhalidən 3 illiyə icarəyə götürülmüşdü. Bunun əvəzində isə hər kvadrat metr sahə üçün 1 ABŞ dolları həcmində kompensasiya verilmişdi. Heç şübhəsiz ki, belə boru kəmərlərinin reallaşdığı digər ölkələrdə olduğu kimi Türkiyədə də kompensasiyaların həcmi ilə bağlı müəyyən narazılıqlar olmuşdu. Belə ki, Azərbaycanda və Gürcüstanda 1 kvadrat metr sahə üçün kompensasiya uyğun olaraq 1,5 ABŞ dolları və 3 ABŞ dolları həcmində müəyyən edilmişdi. Türkiyədə istehlak xərclərinin və torpaq arenda qiymətlərinin Azərbaycan və Gürcüstana nisbətən daha yüksək olmasına baxmayaraq kompensasiyaların daha az verilməsi əhali arasında müəyyən narazılıqlar yaratmışdı. Lakin boru kəmərinin siyasi və iqtisadi əhəmiyyətini başa düşərək əhali layihəni dəstəkləyirdi. Digər tərəfdən, torpaq mülkiyyətçilərinə üç il üçün verilən kompensasiyaların həçmi həmin ərazilərdən bu müddətdə götürülə bilən gəlirlə müqayisədə xeyli çox

olduğundan təsirə məruz qalan əhalinin geniş təbəqəsi kompensasiyaların ədalətli olması qənaətində idi.

Türkiyədə BTC boru kəmərinin tikintisi üçün mülkiyyətçilərdən alınan torpaq sahələrinə görə kompensasiya həm də kəmər boyu 28 metr enində zolaqda əkilən və ya 3 il müddətində əkilə bilən sahələrə görə verilirdi. Mülkiyyətçilər 3 il müddətində "itirilmiş gəlirlərin" əvəzində kompensasiya ilə təmin edilirdilər. Bəzi hallarda belə kompensasiyaların həcmi 10 min ABŞ dollarından çox olurdu. Ümumilikdə isə yalnız torpaq sahələrinin 3 illik tikinti üçün icarəsinə 35 milyon ABŞ dollarından çox vəsait kompensasiya şəklində mülkiyyətçilərə verildi. Bu, orta hesabla hər mülkiyyətçiyə 1100 ABŞ dolları həcmində kompensasiya demək idi. Nəzərə alsaq ki, boru kəmərinin keçdiyi ərazilərdə əhalinin əsas məşğuliyyəti maldarlıqdır, onda kəmərin keçdiyi zonalarda "itirilmiş gəlirlərin" təqribi həcminin ayrılan kompensasiyalardan xeyli az olmasını aydın görmək olar.

**2. BTC boru kəmərinin Türkiyə ərazisində sosial-iqtisadi sahəyə birbaşa təsirlərindən biri də sosial sərmayələrdir. Sosial sərmayələr BTC boru kəmərinin keçdiyi ərazilərdə icmaların sosial-iqtisadi inkişafında mühüm rol oynayıb.**

Türkiyə ərazisində BTC boru kəmərinin keçdiyi ərazilərdə icmalara, ailələrə və ayrıca fərdlərə olan birbaşa təsirlər əsasən sosial-iqtisadi və ekoloji xarakterlidir. Tədqiqatlar göstərir ki, kəmərin tikintisi zamanı ərazidə çoxlu sayda ağır texnikanın cəmlənməsi, hərəkətin intensivliyinin çoxalması, kənd nəqliyyat infrastrukturunun, əksər yerlərdə isə su və elektrik sistemlərinin zədələnməsi halları olmuşdur. BTC neft kəmərinin tikintisi aparılan 56 metr enlikdə zonalarında hərəkətin məhdudlaşdırılması, 28 metr enlikli zonalarda isə tamamilə qadağan edilməsi yerli əhalinin regionda sərbəst hərəkətinə və təsərrüfat fəaliyyətinə müvəqqəti çətinliklər yaratmışdı. Tikintini həyata keçirən BOTAŞ və BTC Co şirkətlərinin, yerli icra qurumlarının və muxtarların yerli icmalarla mütəmadi iş birliyi və reallaşdırdıqları sosial investisiya proqramları dəymiş zərərin tez aradan qaldırılmasına və icmaların inkişafına şərait yaratdı.

Əlbəttə, sosial investisiyalar icmaların rastlaşdığı sosial problemlərin hamısını həll etmək iqtidarında deyil. Qeyd etmək lazımdır ki, icmaların sosial-iqtisadi inkişafını nəzərdə tutan tədbirlər BTC boru kəmərinin tikintisi və istismarı üçün imzalanmış müqavilələrdə açıq ifadə edilmir. Lakin Ətraf Mühitə və Sosial Sahəyə Təsirlərin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədində müvafiq neft-qaz əməliyyatlarının həyata

keçirilməsi zamanı sosial sahəyə və ətraf mühitə mümkün mənfi təsirlərin öyrənilməsi və gələcəkdə aradan qaldırılması istiqamətində tədbirlər nəzərdə tutulur. BTC boru kəmərinin böyük hissəsi yaşayış məntəqələrinə yaxın ərazilərdən və kənd təsərrüfatı üçün yararlı sahələrdən keçdiyindən təsir altında düşən konkret əhali qrupu məlumdur. Odur ki, onlara dəyən birbaşa sosial-iqtisadi və ekoloji təsirlərin müəyyən edilərək aradan qaldırılması BTC boru kəmərinin təhlükəsizliyi üçün də mühüm əhəmiyyət daşıyır. Neft hasilatı və nəqli prosesində əhali qrupuna, icmalara dəyən sosial-iqtisadi və ekoloji təsirləri azaltmaq üçün müvafiq kompensasiyaların ödənilməsindən başqa icmaların sosial-iqtisadi inkişafını da nəzərdə tutan sosial investisiya proqramları BTC Co şirkəti və BTC boru kəmərini Türkiyə ərazisində reallaşdıran BOTAŞ şirkəti tərəfindən həyata keçirilib.

BTC boru kəmərinin tikintisi və istismarı dövründə sosial investisiya proqramları təkcə Türkiyədə deyil, bütün BTC boru kəməri boyu olan ərazilərdə, o çümlədən Azərbaycanda həyata keçirilib. Belə sosial sərmayə proqramlarının əsas məqsədi 1) neft şirkətlərinə qarşı arta bilən içtimai narazılıqların neytrallaşdırılmasına çalışmaq; 2) neftdən gələn gəlirlərdən əhalinin daha geniş təbəqəsinin bəhrələnməsinə yardım etmək; 3) neft-qaz əməliyyatları, o cümlədən neft-qaz daşınması nəticəsində təsirə məruz qalmış əhali qrupuna dolayısı ilə əlavə kompensasiyalar ödəmək; 4) sosial yönümlü tədbirlərə vəsaitlərin ayrılmasını təbliğ etməklə şirkətlərin beynəlxalq imiclərini möhkəmlətməyə cəhd göstərməkdən ibarətdir.

Türkiyə ərazisində həyata keçirilən sosial investisiya proqramlarını (SIP) əsasən dörd qrupa ayırmaq olar:

- İcmalarda sosial-iqtisadi və infrastruktur sahələrinin (məsələn, yolların enerji təchizatının, məktəblərin, tibb müəssisələrinin və sair) inkişaf etdirilməsinə yönələn investisiyalar;
- Ətraf mühitə dəymiş zərərin yumşaldılmasına sərf edilən sərmayə;
- Sosial sərmayə. Bu prqramlar icmaların formalaşmasını, yerli QHT-nın və hakimiyyət nümayəndələrinin bilik və bacarıqlarının armasını nəzərdə tutur;
- İnsan inkişafına yönələn sərmayələr.

BTC boru kəmərinin keçdiyi ölkələr üzrə sosial investisiya proqramları və investisiyaların həcmi eyni olmayib. İlkin sosial sərmayə üçün nəzərdə tutula həcm hər üç ölkədə 6 milyon ABŞ dolları idi. Sonra isə Azərbaycan və Gürcüstan üçün 2 milyon ABŞ dolları, Türkiyə üçün isə 3 milyon ABŞ dolları əlavə edildi.

Türkiyədə sosial investisiya proqramları 2003-cü ildən 2013-cü ilədək 330 icmanı əhatə edib (Bax: cədvəl 1).

Cədvəl 1

Türkiyədə BTC boru kəmərinin təsirinə məruz qalan ərazilərdə sosial investisiya proqramları əsasında görülən işlər (2003-2013)

| | |
|---|---|
| İnvestisiyanın əhatə etdiyi icmaların sayı | 330 |
| İnvestisiyanın miqdarı (ABŞ dolları) | 32,861,632 |
| Təmir edilən təhsil müəssisələrinin sayı | 134 məktəb təmir edilib, 164 məktəb yenidən qurulub |
| Təmir edilən su təchizatı sistemlərinin sayı | 123, o cümlədən 12 motorla su vurulma sistemi, 97 irriqasiya sistemi. Heyvanlar üçün 178 su sistemi |
| Təmir edilən yollar | BTC-nin tikintisi zamanı istifadə edilən bütün yollar təmir edilib |
| Xüsusi təlim keçmiş tibb işçilərin sayı | 401 |
| Birbaşa tibbi xidmət almış insanların sayı | 37,963 |
| İcmalarda yaradılan təsərrüfatların sayı | 2,603 |
| Təlimlərə cəlb edilən fermerlərin sayı | 131,199 |
| Vaksina edilmiş ev heyvanların sayı | 1,066,804 |
| Fermerlərə əkin üçün verilən toxumların miqdarı | 1,375 ton |
| Yaradılan koperativlərin sayı | 2003-2012 illər ərzində 133 icma əsaslı kooperativ |
| Vaksina ilə bağlı təlimlərə cəlb edilən adamların sayı | 1,597 |
| Dəstək alan kiçik və orta sahibkarların sayı | 252 (2012 -2013 –cü illər ərzində). |
| Yeni yaradılan müəssisələrin sayı | 42 (2012 -2013-cü illər). |

2013-cü ildə belə layihələrin əhatə etdiyi kəndlərin sayı 137 olub. Bu proqramlar icmaların effektiv idarə edilməsinə və icmaların inkişafına yönəlib. Qeyd edək ki, infrastruktur layihələrinin həyata keçirilməsinə sərf edilən maliyyənin 25%-dən bir qədər çoxu icmaların daxili imkanları hesabına ödənilib. 2003-2012-ci illər ərzində 500-dən artıq belə layihə icra edilib.

2003-2013-cü illər ərzində bu məqsədlə yerlərdə konkret olaraq aşağıdakı fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu:

- biznes imkanlarının artırılması, marketinq və idarəetmə bacarıqlarının artırılması məqsədilə treninqlərin keçilməsi, həmçinin icmalarda mikro-kredit proqramlarının təsis edilməsinə və ya genişləndirilməsinə yardım etmək və sair;

- su sistemlərinin tikilməsi üçün iştirakçılara treninqlərin keçirilməsi və bu infrastrukturun yaradılmasında konkret yardım və təcrübə mübadilələrinin aparılması və sair;
- təsirə məruz qalmış icmalara texniki yardımların göstərilməsi, çevik treninq sisteminin hazırlanması, kənd infrastrukturlarını təmir və inkişaf etdirmək üçün yeni bilgilərin verilməsi, kənd təsərrüfatını inkişaf etdirmək üçün kredit sistemini inkişaf etdirmək, fermer təsərrüfatlarının inkişafına dəstək məqsədilə texniki məsləhətlərin verilməsi və sair;
- regionlarda tibbi müəssisələrin işçiləri üçün terinqlərin keçirilməsi, treninq və təhsil materiallarının hazırlanması, materialların yayılması, sağlamlıqla bağlı yerli təşəbbüslərin dəstəklənməsi və sair;

**3. BTC boru kəmərinin Türkiyə ərazisində mühüm sosial-iqtisadi təsirlərindən biri də effektiv idarəetməyə və ərazidə sahibkarlığın inkişafına dəstəyin verilməsidir. Bu sahəyə ayrılan sosial investisiyaların nəticələrini müsbət hesab etmək olar.**

BTC boru kəmərinin tikintisi və istismarı ilə bağlı BTC Co və BOTAŞ-ın həyata keçirdiyi sosial investisiya proqramlarında əsas diqqət effektiv idarəetmə sahəsində yerli əhalinin bilik və bacarıqlarının artırılmasına yönəlmişdir. Bu, BTC keçən ərazilərdə insan kapitalının inkişafına da müsbət təsir göstərib. Bu məqsədlə istifadə edilən sosial investisiyalar 7 milyon ABŞ dollarından çox olub.

Cədvəl 2

BTC boru kəmərinin keçdiyi ırazilərdə effektiv idarəetməyə və sahibkarlığın inkişafı sahələrinə qoyulan sosial investisiyalar

| Layihələr | Tərəfdaşlar | BTC Co tərəfindən qrantlar | Tərəfdaşların yatırımları | Ümumi büdcə |
|---|---|---|---|---|
| CEYDEM Layihəsi | Çukurova University, Tədqiqat və Xilasetmə Assosiasiyası | 461,600 | 592,500 | 1054100 |
| Yanğına qarşı mübarizə artırılması layihəsi | Çukurova University, Tədqiqat və Xilasetmə Assosiasiyası | 800,000 | 496,000 | 1296000 |
| İskəndərunda Sənaye Simbiozu layihəsi | Türkiyə Texnoloji inkişaf Fondu | 600,450 | 156,810 | 757260 |
| Kredit Zəmanəti Fondu | Türkiyənin Kredit Zəmanəti Fondu Zirayət Bankı | 2,000,000 | 2,000,000 | 4000000 |
| BTC Co çirkətinin mədəniyyət layihəsi | Tədqiqat və Xilasetmə Assosiasiyası | 30,810 | - | 30810 |
| Cəmi | - | 3,892,860 | 3,248,310 | 7138170 |

4. **BTC boru kəmərinin Türkiyə ərazisində icmaların inkişafına ayrılan sosial sərmayələrin nəticələri birbaşa icma üzvlərinə yönəldiyindən daha konkret və müsbət sosial-iqtisadi yönümlüdür.**

Türkiyə ərazisində BTC boru kəmərinin təsirinə məruz qalan icmaların inkişafına yönələn sosial investisiya proqramının əhatə etdiyi spesifik sahələr aşağıdakılardır:

- BTC boru kəmərinin təsirinə məruz qalmış icmalarda mikrokredit, sahibkarlıq və gəlir gətirə bilən hər hansı digər sahələrin inkişaf etdirilməsi yolu ilə biznes imkanlarının və dolanışıq üçün vasitələrin inkişaf etdirilməsi;
- inkişaf etdirilmiş sosial infrastrukturlara, o cümlədən içməli suya, məktəblərə, xəstəxanalara, yollara, suvarma sistemlərinə və sair malik olmağa kömək etmək;
- BTC boru kəmərənin keçdiyi regionlarda kənd təsərrüfatının inkişafını dəstəkləmək;
- əhalinin sağlamlıq və sanitariya sahəsində məlumatlılığını artırmaq;

Sosial investisiya proqramlarının bu vəzifələri yerinə yetirmək üçün müəyyən etdiyi büdcə icmaların sosial-iqtisadi həyatına ciddi təsir göstərə bilən həcmdə olub. Belə ki, 2006-2013-cü illər ərzində BTC Co tərəfindən BTC-nin keçdiyi hər üç ölkə üçün ümumilikdə 35 milyon ABŞ dollarına yaxın vəsait xərclənib. Bu vəsaitin böyük bir hissəsi (təqribən 17 milyon ABŞ dolları) Türkiyədə icmaların inkişafı üçün yönəldilib. Müqayisə üçün qeyd edək ki, Azərbaycanda icmaların inkişafı üçün yönəldilən sosial investisiyanın həcmi təqribən 10 milyon, Gürcüstanda isə təqribən 7 milyon ABŞ dolları olub. 2014-cü il üçün bu məbləğ ümumilikdə 3,5 milyon ABŞ dolları olmaqla Azərbaycanda 1,1 milyon, Gürcüstanda 643 min, Türkiyədə isə 1,8 milyon ABŞ dolları olub.

Bu sərmayələr hesabına Türkiyə ərazisində BTC boru kəmərinin təsirinə məruz qalan icmaların inkişafına dəstək verilməsi, daha konkret isə 1) biznes imkanlarının artırılması, marketinq və idarəetmə bacarıqlarının artırılması məqsədilə treninqlərin keçilməsi, həmçinin icmalarda mikro-kredit proqramlarının təsis edilməsinə və ya genişləndirilməsinə yardım etmək və sair; 2) su sistemlərinin tikilməsi üçün iştirakçılara treninqlərin keçirilməsi və bu infrastrukturun yaradılmasında konkret yardım və təcrübə mübadilələrinin aparılması və sair; 3) Təsirə məruz qalmış icmalara texniki yardımların göstərilməsi, çevik treninq sisteminin hazırlanması, kənd infrastrukturlarını təmir və inkişaf etdirmək üçün yeni bilgilərin verilməsi, kənd təsərrüfatını inkişaf etdirmək üçün kredit sistemini inkişaf etdirmək,

fermer təsərrüfatlarının inkişafına dəstək məqsədilə texniki məsləhətlərin verilməsi və sair; 4)regionlarda tibbi müəssisələrin işçiləri üçün terinqlərin keçirilməsi, treninq və təhsil materiallarının hazırlanması, materialların yayılması, sağlamlıqla bağlı yerli təşəbbüslərin dəstəklənməsi və sair nəzərdə tutulurdu. Bütün bu tədbirlər icmaların davamlı inkişafı üçün ciddi zəmin yaradırdı.

**5. BTC boru kəmərinin tikintisinə, istismarına və əhali ilə birgə fəaliyyətə və məsləhətləşmələrə cəlb edilən insanların bilik və bacarıqlarının artırılması müsbət təsirlərdəndir. BTC boru kəməri təkcə neft ixracı kəməri deyil, həm də yeni biliklərin və texnoloji yeniliklərin regiona çatdırılmasıdır.**

BTC boru kəməri ilə bağlı Türkiyə ərazisində həyata keçirilən sosial investisiya proqramlarında əsas diqqət sosial problemlərin həlli məqsədilə yerli əhalinin bilik və bacarıqlarının artırılmasına yönəlmişdir. Bu tədbirlərin həyata keçirilməsindən əldə edilən nəticələri aşağıdakı kimi qruplaşdırmaq olar:

- yeni gəlir yerlərinin yaradılması, yeni kiçik biznes fəaliyyətinin qurulması, mikrokredit sisteminin yaradılması və sair;
- suvarma sistemləri və içməli su təchizatının inkişaf etdirilməsi; bazarlarla əlaqənin genişlənməsi üçün yol sistemlərinin inkişaf etdirilməsi; boru kəmərinin təsirinə məruz qalan kənd və qəsəbələrdə məktəb ləvazımatları ilə təchizatın yaxşılaşması, daha yaxşı tibbi xidmət almaq imkanının yaradılması və sair;
- kənd təsərrüfatının məhsuldarlığının artırılması, məhsulların bazarlara çıxarılmasının və bazarlarla bağlı məlumatların alınmasının asanlaşması, kənd təsərrüfatı infrastrukturunun yaxşılaşdırılması, fermerlərin kreditlər almasının asanlaşdırılması və sair;
- əhalinin sanitraiya ilə bağlı məlumatlılığının artırılması, əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması, yerli tibbi müəssisələrin bacarıqlarının artırılması, yolxucu xəstəliklərlə bağlı əhalinin məlumatlılığının çoxalması və sair.

Proqramların yerinə yetirilməsi prosesində BTC Co şirkətinin məsul şəxslərinin yerli əhali ilə birgə fəaliyyətinə, icma idarəetməsinin təkmilləşdirilməsinə və icmada hesabatlılıq vərdişlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Araşdırmalar göstərir ki, icmalarla işin və icmadaxili hesabatlılığın yaradılması nəticəsində yuxarıda nəzərdə tutulan vəzifələrin öhdəsindən uğurla gəlinib. Fəaliyyətdə uğurun əsas səbəblərindən də biri yerli əhalinin sosial-iqtisadi problemlərlə bağlı

şikayətlərinin vaxtında araşdırılması olub. Belə ki, həm BTC boru kəmərinin tikintisi, həm də istismarı dövründə yerli əhali tərəfindən sosial-iqtisadi təsirlərlə bağlı şikayətlərə vaxtında və ədalətlə baxılması üçün xüsusi effektiv mexanizm formalaşıb. Bu mexanizm bütün şikayətlərə vaxtında baxılmasına və operativ qərarların qəbul edilməsinə imkan yaradıb. Belə mexanim boru kəmərinin təsirinə məruz qalan ayrı-ayrı insanlara və bütövlükdə icmalara dəyən zərərin vaxtında ödənilməsinə imkan yaradıb.

6. **BTC əsas ixrac neft boru kəmərinin Türkiyə ərazisində sosial-iqtisadi vəziyyətə təsirlərdən ən əsası bu boru kəmərinə görə BTC Co tərəfindən Türkiyə dövlətinə birbaşa ödənilən tranzit haqlarıdır.**

BTC boru kəməri ilə ixrac edilən xam neft dünya ümumi neft istehsalında o qədər də böyük paya malik olmasa da (təqribən 1%) müstəqil və təhlükəsiz nəqliyyat vasitəsi kimi mühüm əhəmiyyətə malikdir. Elə buna görə də BTC layihəsi bu tip layihələr arasında həm uzunluğuna, həm də cəlb edilən maliyyə vəsaitlərinin miqdarına görə ciddi bir layihə idi.

Lakin nəzərə almaq lazımdır ki, BTC boru kəmərinin onun keçdiyi ölkələrin iqtisadiyyatına töhvəsi bu ölkələrin ÜDM-da mühüm çəkiyə malikdir. Xüsusilə, Azərbaycanın büdcəsində və ÜDM-un həcmində neft gəlirləri yüksək çəkiyə malikdir. Gürcüstan və Türkiyənin də bu boru kəmərindən iqtisadi mənfəəti kifayət qədər yüksəkdir. Bu ölkələr də BTC boru kəməri ilə nəinki öz enerji təhlükəsizliyini təmin edirlər, həm də BTC-nin istifadəsinə görə tranzit haqları alırlar. Bu vəsait dövlət büdcəsinə daxil olaraq hökumət tərəfindən ölkə ərazisində əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün istifadə edilir. Belə tranzit haqlar BTC Co tərəfindən hər üç dövlətə-Azərbaycana, Gürcüstana və Türkiyəyə ödənilir.

Yerli hökumətlərlə Razılaşma və Ölkələrarası Razılaşma sənədlərinə əsasən bu ölkələrə ödənilən tranzit haqları boru kəmərindən ötürülən hər barel neft üçün nəzərdə tutulub. Müqaviləyə görə 1 barel neftə görə Türkiyəyə 0,20 ABŞ dolları tranzit haqq ödənilir. Əlbəttə, BTC boru kəməri ilə eyni ərazilərdən keçən və eyni tikinti zolağında yerləşən (Ərzuruma qədər) Cənubi Qafqaz Qaz boru kəmərindən əldə edilən tranzit haqlarını da nəzərə alsaq, Gürcüstanın və Türkiyənin mənfəətlərinin kifayət qədər yüksək olduğunu görə bilərik.

BTC boru kəmərinin Türkiyə büdcəsinə maliyyə formasında ödənilən mənfəət BTC-nin istismar ediləcəyi ilk 16 il ərzində ildə 140-200 milyon

ABŞ dolları həcmində qiymətləndirilir. Sonrakı illərdə isə bu həcm 200 milyondan 300 milyona qədər arta bilər. Əlbəttə, Türkiyənin əldə edə biləcəyi ümumi mənfəət BTC boru kəməri ilə ixrac edilən xam neftin həcmindən və Türkiyə ərazisində boru kəmərinə göstərilən xidmət haqlarından asılıdır.

Türkiyənin BTC boru kəmərindən tranzit haqqı kimi əldə edə biləcək cəmi gəlirləri 2024-ci ilədək təqribən 3 milyard ABŞ dolları həcmində qiymətləndirilir.

BTC boru kəmərinin istismarının ilk 6 ilində Türkiyə dövlətinə vergi və nəql etmə xərci kimi ödənilən məbləğ hər nəql edilən 1 barel neftə görə 55 sent, 6-cı və 16-cı illər arasında 75 sent, 17-ci və 40-cı illər arasında isə 80 sent nəzərdə tutulub. Beləliklə, BTC-nin 2024 –cü ilədək istismarından Türkiyənin əldə edə biləcəyi gəlir ölkənin sosial-iqtisadi inkişafına mühüm töhvə vermiş olar.

Cədvəl 3

BTC dən eldə edilən illik vergi və nəql gəlirinin miqdarı

| İllər | vergi və nəql xərci ($/1 barel) | Gəlir miqdarı (milyon ABŞ dolları) |
|---|---|---|
| 1 ilə 6 | 0,55 | 180 |
| 6 ilə 16 | 0,75 | 240 |
| 17-40 | 0,80 | 280 |

Lakin qeyd etmək lazımdır ki, boru kəmərinin Türkiyə ərazisindən keçən hissəsinin Gürcüstan ərazisindən keçən hissəyə nisbətən təqribən 4 dəfə çox olmasına baxmayaraq Türkiyəyə ödənilən tranzit haqqı Gürcüstana ödənilən tranzit haqqından (hər kilometr uzunluğa görə) xeyli azdır. Lakin buna baxmayaraq, Türkiyənin BTC boru kəmərindən əldə etdiyi iqtisadi mənfəət kifayət qədər cəlbedicidir.

BTC layihəsi çərçivəsində geniş miqyaslı işlər görən Türkiyə şirkətlərindən biri də TPAO-dur. TPAO-nun xaricdəki fəaliyyətinin əsas hissəsi Azərbaycanın Azəri-Çıraq-Günəşli yataqlarının istismarı ilə əlaqədardır. Hasil olunan neft BTC xətti ilə Ceyhan limanından dünya bazarına nəql olunur. Ceyhan terminalından xam neft 2 iyun 2006-cı ildən etibarən tankerlərlə daşınmağa başlamış və 2014 ci ilin aprel ayına qədər 2500 tankerlə 2 milyard barrel (270 mln. ton) xam neft nəql olunmuşdur. Bu tarixə qədər Türkiyə təxmini 1,3 milyard dollar vergi və nəql olunma gəliri əldə etmişdir. Bu məbləğə TPAO-nun Azəri-Çiraq-Günəşli yataqlarındakı 6.75% payını da əlavə etsək (bir barrelin orta qiymətini 60 dollar olduğunu nəzərə alsaq) Türkiyə 2014-ci ilə qədər orta hesabla illik 1mlrd. dollar, cəmi

isə 9 mlrd dollardan çox gəlir əldə etmişdir. Bu, bir daha konkret rəqəmlərlə, BTC-nin Türkiyə üçün iqtisadi əhəmiyyətini ifadə edir.

Beləliklə, BTC boru kəmərinin Türkiyə ərazisindən keçməsi və onun BTC Co şirkətinə payçı olması ilə Türkiyə nəinki reosiyasi dividentlər əldə edir, həmçinin öz enerji təhlükəsizliyini təmin etməklə yanaşı ciddi iqtisadi mənfəət də əldə etmiş olur. Belə iqtisadi mənfəətin həcmi 3 milyardan çoxdur. Türkiyə öz iqtisadiyyatında bu mənfəətdən sosial-iqtisadi problemlərin həllində də istifadə edə bilər.

7. **BTC boru kəmərinin Türkiyədə sosial-iqtisadi sahəyə dolayısı ilə təsirləri də kifayət qədər güclüdür. Dolayısı ilə təsirlərindən ən əsası Türkiyənin neft emalı sənayesinin inkişaf etdirilməsi perspektivləridir. Ceyhan limanının yaxınlığında regionun böyük neft emalı zavodlarının tikintisi Türkiyəyə ciddi iqtisadi mənfəət verməklə yanaşı, regionda yaşayan əhalinin sosial-iqtisadi vəziyyətinə də müsbət təsir göstərə bilər.**

Türkiyə Ceyhan limanına nəql olunan neftin miqdarı ilə neft emalı zavodlarının ən əsas xammalının ötürülməsinin davamlılığını təmin edərək bu sahədə əsaslı mövqe tutmuşdur. Türkiyənin inkişaf etməkdə olan ölkə kimi artan enerji tələbatını və coğrafi mövqeyini nəzərə aldıqda aydın olur ki, neftayırma zavodlarının inşasına qoyulan sərmayələrin sürətləndirilməsinə həm iqtisadi, həm də strateji cəhətdən zərurət yaranmışdır. Türkiyədəki mövcud neftayırma zavodlarının potensialının kifayət etməməsi səbəbindən ölkənin illik 10 milyon ton neft məhsullarına ehtiyacı formalaşır. Bu kəsirin idxalla kompensasiya edilməsi isə valyuta kursunda itkiyə və tədiyyə balansının pozulmasına səbəb olmaqdadır.

Aralıq dənizinin ən böyük limanına çevrilən Ceyhan limanına sürətli şəkildə sərmayələrin gəlməsinə ehtiyac var. Qurulacaq neftayırma və neft-kimya zavodları Ceyhan bölgəsini, xam nefti dünya bazarlarına çatdıran "kran"dan daha çox bölgənin böyük sənaye mərkəzinə çevrilməsinə səbəb olacaqdır. Çünki bu boru xətləri sayəsində ucuz və fasiləsiz xam neftin əhəmiyyətli bir qismi Ceyhan bölgəsinə emal olunmaq üçün istiqamətləndiriləcəkdir. Qoyulacaq sərmayələr vasitəsilə Türkiyənin Aralıq dənizində neftayırma zavodu potensialı yüksək olan İtaliya və İspaniya ilə rəqabət edə biləcək bir neftayırma zavodu mərkəzinə sahib olması hədəf götürülmüşdür. Hər keçən il artan neft məhsulları tələbinin qarşılanması və Türkiyəyə ötürülən neftin işlənib məhsul halına gətirilməsi üçün Ceyhan bölgəsində tikiləcək neftayırma zavodu layihələrinin tez bir zamanda həyata keçirilməsi lazımdır.

Türkiyə dövləti Ceyhan bölgəsini Aralıq dənizi ölkələri səviyyəsində neftayırma zavodu potensialına malik bölgəyə çevirmək niyyətindədir. Bu, proqramın reallaşması ölkə iqtisadiyyatının inkişafına təkan verəcək və qoyulacaq sərmayələrin miqdarı 20 milyard dolları aşacaq. Sərmayələrin yerli və xarici özəl sektor investorları tərəfindən reallaşması bölgənin dünya səviyyəsində enerji mərkəzi halına gəlməsini təmin edəcəkdir. Təbii ki, bütün bunlar bütövlükdə region üçün, xüsusilə Türkiyə dövləti üçün həm də ciddi sosial-iqtisadi əhəmiyyət kəsb edir.

**8. BTC-nin təsiri ilə regiona investisiyaların cəlb olunması da BTC-nin sosial-iqtisadi sahəyə dolayısı ilə olan təsirlərindəndir. Bu təsirlər nəticədə yeni iş yerlərinin açılması və mövcud strukturların daha məhsuldar işləməsi təmin edilib.**

BTC-nin reallaşması Ceyhan bölgəsinə istiqamətlənmiş investisiya layihələrinin say və çeşidini artırmışdır. Ceyhan-Yumurtalıq regionunu enerji mərkəzinə çevirmək, əslində Türkiyənin BTC-ilə əlaqədar əldə etmək istədiyi ən vacib məqsədlərdən biridir. Regionda mövcud olan xətlər tam potensialla fəaliyyət göstərərsə bölgədən Kərkük-Yumurtalıq xətti ilə ildə 70 mln. ton, BTC xətti ilə 50 mln. ton olmaqla cəmi 120 mln. ton neft nəql oluna bilər. Enerji mütəxəssislərinin ehtimallarına görə, bu potensiala Samsun-Ceyhan xəttinin illik 70 mln. tonluq potensialı da əlavə olunarsa, ümumilikdə bölgəyə 190 mln. ton neft daxil olacaqdır. Bu potensial, çübhəsiz ki, regiona böyük həcmdə investisiyaların cəlb olunmasına gətirib çıxaracaqdır. Bu investisiyaların cəlbi üçün dövlət səviyəsəində tədbirlərin həyata kəçirilməsi lazımdır. Ceyhan-Yumurtalıq regionunu enerji mərkəzinə çevirmək üçün geniş miqyaslı dövlət programı tərtib olunmalı və Ceyhanda neftayırma zavodları, neft-kimya müəssisələri, enerji stansiyaları, mütəşəkkil sənaye bölgələri və limanların inşa edilməlidir.

BTC boru kəmərinin regionda yaratdığı investisiya mühitinə ilk cəlb edilən şirkətlərdən biri Azərbaycan Dövlət Neft Şirkətidir (ARDNŞ). ARDNŞ İzmir şəhərindəki Aliağa rayonunda ölkənin ən böyük neftkimya kompleksi olan "PETKİM"-i 30 may 2008-ci ildə 2,04 mlrd. dollara satın aldı. Bu istiqamətdə mühüm addımlardan biri də "STAR" neftayırma müəssisəsinin yaradılmasıdır. "STAR neftayırma" "Petkim Petrokimya" şirkətinin mövcud ərazisi daxilində 10 mln.ton xam neft emalı gücünə malik bir zavod olacaqdır. 2015-ci ildə tikinitisinin başa çatması gözlənilən neftayırma zavoduna, ilkin mərhələdə 7-10 min nəfər, daha sonra isə 1000 nəfər daimi işçi cəlb olunacaqdır. 2015-ci ildə istehsala başlanılması gözlənilən zavod üçün Petkim yarımadasına 5 mlrd. dollar invesitisiya

qoyulacaqdır. Beləliklə, xam neftin Türkiyə ərazisində emal edilməsi ilə hər il milyard dollarla ölçülən məbləğin xaricə axmasının qarşısı alınacaqdır. Planlaşdırılan neftayırma zavodları dəyəri aşağı olan "qara" məhsulu dəyəri yüksək olan "ağ" məhsullara çevirəcək və eyni zamanda, Avropa Birliyi ölkələri üçün tövsiyyə olunan standartlara cavab verən, müasir texnologiyalarla yeni məhsullar istehsal edəcəkdir.

Cədvəl 4

ARDNŞ-ın Türkiyədəki investisiyaları

| İnvesitisiya adı | Miqdarı (milyard dollar) | İstifadəyə verildiyi vaxt |
|---|---|---|
| Petkim | 2,04 | 2008 |
| Petkim limanı | 1,3 | 2015 |
| "STAR" neftayırma | 5,00 | 2016 |
| TANAP qaz xətti | 8,00 | 2018 |

BTC neft boru, Cənubi Qafqaz Qaz boru kəməri və digər layihələr Azərbaycan Türkiyə arasında ticarət dövriyyəsinin artımına müsbət təsirini göstərmişdir. Məhz bunun nəticəsidir ki, Azərbaycan və Türkiyə arasında ticarətin həcmi 2010-cu ildə 2,5 milyard dollar, 2011-ci ildə isə 3 milyard dollar olmuşdur. Lakin bu rəqəmlər iki ölkə arasında ticarət əlaqələrinin potensialından xeyli azdır. Son illərdə aparılan iqtisadi və strateji əməkdaşlıq razılaşmaları nəticəsində 2020-ci ildə ticarət əlaqələrinin həcminin 10 milyard dollara çatdırılması gözlənilir. Bütün bu sərmayələrin çıxış nöqtəsi olaraq BTC boru xəttini göstərmək səhv olmayacaq.

Göründüyü kimi, BTC-nin Türkiyə iqtisadiyyatına və Türkiyə ərazisində sosial-iqtisadi vəziyyətə birbaşa və dolayısı ilə təsirləri kifayət qədər böyükdür. BTC boru kəməri nəinki Türkiyə və digər iştirakçılar üçün, həm də dünya üçün mühüm əhəmiyyəti olan enerji layihəsidir.

**Tədqiqat işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1. Baloğlu M.H. Baki-Tbilisi-Ceyhan neft boru-kəmərinin Türkiyənin sosial-iqtisadi inkişafina təsirinin tədqiqinin nəzəri metodoloji əsasları / AMEA İqtisadiyyat İnstitutu, AMEA-nın Xəbərləri, No 4, Bakı-2011, s. 211-215;

2. Baloğlu M.H., "Baki-Tbilisi-Ceyhan neft boru-kəmərinin infrastruktur təsərrufatlarının əməli idarə edilməsi və planlaşdırılmasının təkmilleşdirilməsi məsələləri". AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, No 4, Bakı-2011, s. 350-355;

3. Baloğlu M.H., Azerbaycan devlet petrol şirketi (socar) yatırımlarının Türkiye ekonomisine etkilerinin değerlendirilmesi, Journal of Qafqaz University, №1(32), Bakı-2011, s.25;

4. Baloğlu M.H., "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Türkiyə üzrə investiya qoyuluşlarının əsas istiqamətləri". 'Kooperasiya elmi-nəzəri jurnal', №2(27), Bakı-2012, s. 142-146;

5. Baloğlu M.H. "Azerbaycan devlet petrol şirketi socarın Türkiye yatırımlarında Bakü-Tiflis-Ceyhan petrol boru hattının rolü", 'Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, Tezislər'; Qafqaz Universiteti; 26-27 Aprel, 2013-cu il, s.37;

6. Baloğlu M.H. "Azerbaycan Enerji Nakil Hatlarının Türkiye Ekonomik İlişkilerindeki Rolünün Değerlendirilmesi"//'Qloballaşma Prosesində Qafqaz və Mərkəzi Asiya" IV Beynəlxalq Konqresin Materialları'; Qafqaz Universiteti; 02-04 May,2014-cu il,s.235-241

7. М.Г. Балоглу. Принципы и факторы нормального функционирования нефтепровода Баку-Тбилиси-Джейхан, Економіка та держава №12, 2015, s.132-133

8. Baloğlu M.H. "BTC boru kəmərinin tikintisi və istismarı dövründə Türkiyə ərazisindəki sosial təsirlərin araşdırılması", İpək yolu, Azərbaycan Universitetinin elmi jurnalı, Bakı-2016. №1

**Мутлу Гусейн оглу Балоглу**

## Влияние нефтепровода Баку-Тбилиси-Джейхан на социально-экономическое развитие Турции


### РЕЗЮМЕ

**Диссертационная работа** состоит из введения, трех глав, выводов и предложений, а также списка использованной литературы.

**Во введении** обосновывается актуальность темы, определяется степень изученности проблемы, формулируется цель и задачи исследования, научная новизна и практическая значимость диссертации, апробация исследования.

**В первой главе** диссертации "Преимущества, особенности использования и необходимость развития трубопроводного транспорта нефти" были изучены вопросы мировой энергетической безопасности и их решения, в том числе, раскрыта необходимость создания трубопроводного транспорта для перевозки нефтегазопродуктов в регионы потребления, а также проведен сравнительный анализ нефтяных и газовых запасов Каспийского бассейна.

**Во второй главе** "Анализ современного состояния использования нефтепровода Баку-Тбилиси-Джейхан и нефтяная стратегия Турции" автор выявил характерные особенности нефтепроводов Каспийского бассейна и социально-экономические результаты их использования, а также дал высокую оценку значению трубопровода Баку-Тбилиси-Джейхан в мировой и турецкой энергетической безопасности и нефтяной стратегии Турции.

**В третьей главе** диссертации "Направления увеличения влияния нефтепровода Баку-Тбилиси-Джейхан на социально-экономическое развитие Турции" автор исследует роль нефтепровода Баку-Тбилиси-Джейхан в превращении Турции в стратегический энергетический регион, влияние нефтепровода Баку-Тбилиси-Джейхан на развитие отраслей промышленности Турции, а также основные направления влияния нефтепровода Баку-Тбилиси-Джейхан на социально-экономическое развитие Турции.

**В заключении** обобщены важнейшие теоретические и практические результаты проведенного исследования и даны научно обоснованные выводы и предложения. Автор подчеркивает, что роль влияния нефтепровода Баку-Тбилиси-Джейхан на социально-экономическое развитие Турции значительна. В диссертации также разработаны предложения и рекомендации, направленные на обеспечение более эффективного использования нефтепровода Баку-Тбилиси-Джейхан, имеющего особую актуальность.

**Mutlu Huseyn oglu Baloglu**

## An influence of the Baku-Tbilisi-Ceyhan oil pipeline on the socio-economic development in Turkey

### SUMMARY

**The thesis** consists of an introduction, three chapters, conclusion and bibliography.

The relevance of the theme is determined in the **introduction**. Also the degree of scrutiny of the problem, goal and objectives of the research, scientific novelty and practical significance of dissertation, as well as approbation of the study are formulated in the introduction.

The **first chapter** of the thesis "The advantages, peculiarities of use and the necessity of development of pipeline transportation of oil" is devoted to revealing of issues of global energy security and to address them, the necessity of development of pipeline transportation of oil to the consumption regions and areas, also a comparative analysis of oil and gas reserves of the Caspian Basin is done.

In the **second chapter**, "Analysis of the current state of use of the Baku-Tbilisi-Ceyhan oil pipeline and the oil strategy of Turkey" the author revealed the characteristic features of the pipelines of the Caspian Basin and socio-economic results of their use, and praised the value of the Baku-Tbilisi-Ceyhan oil pipeline in the world and Turkey's energy security and Turkey's oil strategy.

In the **third chapter**, "Directions of increasing of the influence of the Baku-Tbilisi-Ceyhan oil pipeline upon the socio-economic development in Turkey" the author explores the role of the Baku-Tbilisi-Ceyhan oil pipeline in the transformation of Turkey into a strategic energy region, the impact of the Baku-Tbilisi-Ceyhan oil pipeline on the development of industries in Turkey, as well as the main areas of influence of the Baku-Tbilisi-Ceyhan oil pipeline on the socio-economic development of Turkey.

The most important theoretical and practical results of the study and scientifically grounded proposals are summarized in **conclusion**. The author emphasizes, the role of influence of the Baku-Tbilisi-Ceyhan oil pipeline on the socio-economic development of Turkey is significant. The proposals and recommendations aimed at ensuring better use of the Baku-Tbilisi-Ceyhan pipeline, which has a special urgency, are also developed in the thesis.

AMEA-nın mətbəəsində çap olunub
Tiraj-100